**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

## AR Vergilər Nazirliyinin nümayəndələrinin ATİB üzvləri ilə görüşü keçirildi

**No: 09/11/90**
**16.03.2009**

Azərbaycan Türkiyə İş Adamları Birliyinin (ATİB) ofisində Azərbaycan Respublikası Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar baş idarəsinin rəisi Şamil Ərəbov, Vergi ödəyicilərinə xidmət idarəsinin baş dövlət vergi müfəttişi Bəxtiyar Abdurəhmanov və Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı və uçotun təşkili baş idarəsinin şöbə rəisi İftixar Axundov ilə ATİB üzvlərinin görüşü keçirildi. Görüşün keçirilməsində məqsəd Azərbaycan Respublikasının dövlət vergiləri; vergi ödəyicilərin qeydiyyatı; vergi yoxlamaları; sanksiyalar; vergi ödəyicisinin hüquqları və vəzifələri və s. barədə iş adamlarını məlumatlandırmaq idi.

İ.Axundov vergi nəzarətinin 1-ci addımının qeydiyyat olduğunu qeyd edərək, vergi ödəyicilərinə eyniləşdirmə nömrələrini verildiyini bildirdi. İ.Axundov həmçinin 2008-ci ildən etibarən AR-də həm də hüquqi şəxslərin dövlət qeydiyyatının vergi ödəyicilərinin uçotu ilə bir prosedurda aparıldığını da bildirdi: "2008-ci il yanvar ayının 1-dən etibarən sahibkarlıq subyektlərinin, yəni kommersiya hüquqi şəxslərin, xarici kommersiya hüquqi şəxslərin nümayəndəlik və filiallarının, habelə fiziki şəxslərin qeydiyyatı prinsipi ilə vahid vergi orqanları tərəfindən aparılır. Vergilər Nazirliyi tərəfindən qeydiyyat aparılan anda bu məlumatlar DSMF və Dövlət Statistika Komitəsinə online rejimində göndərilir və artıq sahibkarlar qeydiyyatla bağlı məsələlərlə bağlı narahat edilmirlər."

İ.Axundov təkcə 2008-ci ildə AR-da 6500-ə qədər kommersiya hüquqi şəxs qeydə alındığını, bu rəqəmin də 2007-ci il ilə müqayəsədə 30% çox olduğunu bildirdi. İ.Axundov 2008-ci ildə ümumilikdə 44200 sahibkarlıq subyekti qeydiyyata alınması, həmçinin qeydiyyata düşən xarici sərmayəli kommersiya hüquqi şəxslərin sayı 510-a çatması, bu şəxslərin 40%-ni Türkiyəli sahibkarlar təşkil etməsi barədə də məlumat verdi.

İ.Axundov qeydə alınmış sahibkarlıq subyektlərinin sahələr üzrə xüsusi çəkisi barədə məlumat verdi: "Ilk növbədə tikinti və xidmət sahəsində qeydə alınmış subyektlərin sayının daha yüksək olması nəzərə çarpır."

İ.Axundov AR-də vergi nömrəsinin həm də kommersiya hüquqi şəxsin dövlət qeyd nömrəsi olduğunu ifadə etdi.

İ.Axundov hər bir qeydiyyat orqanı hüquqşünasının Vergilər Nazirliyinin saytında bir pəncərəsinin olduğunu, elektron ünvanın yerləşdirildiyini qeyd etdi: "Yaşayış yeri qeydiyyatına uyğun hüquqşünas seçilir, ünvanına suallar göndərilir və hüquqşünas tərəfindən ləngidilmədən cavab verilir." İ.Axundov yaxın gələcəkdə hətta əmək kitabçalarının kommersiya hüquqi şəxslərin ilkin qeydiyyat zamanı, yəni təyin edilmiş şəxs (direktor, mühasib) yoxdursa, ödənişsiz olaraq veriləcəyini də istisna etmədi.

İ.Axundov Vergilər Nazirliyi tərəfindən şəhadətnamələrin, ərizələrin və çıxış sənədləri olan reyesterdən çıxarışların formasının dəyişdirilməsi, təkmilləşdirilməsindən söz açaraq bu nümunələri

əldə etmək üçün müraciət etmək lazım olduğunu bildirdi. İ.Axundov kommersiya hüquqi şəxslərin qeydiyyatının Bakı şəhəri üzrə Heydər Əliyev prospekti 106-da xüsusi vergi rejimli departament binasının 1-ci mərtəbəsində; Respublikanın bütün ərazi vergi orqanlarında 12 ərazi vergi orqanı; Naxçıvan Muxtar Respublikasında isə MR Vergilər Nazirliyində həyata keçirildiyini qeyd etdi.

İ.Axundov cari ildən etibarən AR-da fəaliyyət növlərinin yeni standartı təsdiq edildiyi və qüvvəyə mindiyini, həmçinin təxminən 9000 fəaliyyət növü yeni standartlara görə şaxələndiyi üçün onların müəyyənləşdirilməsi işinin yerli vergi orqanlarına həvalə edildiyini bildirdi. İ.Axundov vergi ödəyicisinin fəaliyyət sahəsinin təsnifata aid suallar ünvanlanaraq, fəaliyyət növünü dəqiqləşdirilməsinin xahiş olunması kimi halların mümkünlüyünü bildirdi.

İ.Axundov kommersiya hüquqi şəxsin qeydiyyata alınarkən adının yoxlanılması yeniliyi barədə də məlumat verdi.

B. Abdurəhmanov Vergilər Nazirliyində Beynəlxalq Valyuta Fondunun tövsiyyələri nəzərə alınmaqla vergi ödəyicilərinin məlumatlandırma sisteminin yaradıldığı, yerli vergi orqanlarında müvafiq şöbələrin fəaliyyət göstərdiyini bildirdi: ”Vergi ödəyiciləri mövcud qanunvericilik və onun tətbiqi ilə bağlı həm yazılı, həm şifahi formada istədikləri sorğuları edərək, istənilən məlumatı ala bilərlər. Bundan əlavə, Vergi ödəyiciləri ölkənin istənilən yerində ödənişsiz olaraq 195 nömrəli telefona zəng edərək, qanunvericilik, borcları haqqında məlumat almaq, eyni zamanda hər hansı bir vergi orqanı əməkdaşının qanunsuz hərəkəti, aşkar edilən qanunsuz sahibkarlıq fəaliyyəti barədə müraciət etmək imkanı yaradılmışdır.”

B. Abdurəhmanov gələcəyin potensial vergi ödəyiciləri olan şagirdlər, tələbələr arasında maarifləndirmə məqsədi ilə orta məktəblərdə tədris edilmək üçün 3 dərs vəsaiti, ali məktəblər üçün də bir neçə dərs vəsaiti çap edilərək pulsuz paylanması haqqında məlumat verdi: “Daima tədris keçən müəllimlərə lazımi məlumatlar verilir. Gənclərin məlumatlandırılması üçün Vergilər Nazirliyinin saytında da xüsusi bir bölmə yaradılmışdır.”

B. Abdurəhmanov cari ildən etibarən Vergilər Nazirliyinin saytında “Vergi məcəlləsini birgə yazaq” başlığı altında fəaliyyət göstərən bölmə haqqında məlumat verdi: “Burada vergi məcəlləsinin istənilən maddəsi çıxır, vergi ödəyiciləri bu maddədə hansı dəyişikliklər, bu maddəni hansı formada görmək istəyirlərsə öz təkliflərini yazırlar. Bu təkliflərə mütəxəssislər tərəfindən baxılır, təklif məqbuldursa “qəbul”, əgər məqbul deyilsə “imtina” basılır. Gələcəkdə vergi məcəlləsinə dəyişikliklər edilərkən bu təkliflərin aidiyyatı idarəyə göndərilməsi və vaxtaşırı olaraq vergi qanunvericiliyinin təkmilləşdirilməsi zamanı istifadə olunması nəzərdə tutulur.”

Ş.Ərəbov ölkə rəhbəri tərəfindən bəzi vergi dərəcələrinin optimallaşdırılması ilə bağlı dövlət proqramın qəbul edildiyi barədə məlumat verdi: “Optimallaşdırma deyəndə yəqin ki, vergi dərəcələrinin azaldılmasından söhbət gedir. Layihədə ƏDV-nin 1% azaldılması, mənfəət vergisinin dərəcəsinin 2% azaldılması nəzərdə tutulur. Nəzərdə tutulan dəyişiklər vergi dərəcəsinin artırılması ilə bağlı deyil. Bu barədə heç nə nəzərdə tutulmayıb.”

Ş.Ərəbov Vergilər Nazirliyi tərəfindən vergi məcəlləsinə dəyişikliklərlə bağlı layihənin artıq hökümətə verildiyi və layihənin 2010-cu il yanvarın 1-dən mayın 15-nə kimi Milli Məclisə təqdim ediləcəyini bildirdi.

Ş.Ərəbov Vergilər Nazirliyi tərəfindən iqtisadi böhranla bağlı atılan addım haqqında da danışdı: “Banklarla bağlı mənfəətin nizamnamə kapitalına yönəldilmiş hissəsinin mənfəət vergisindən azad olunması ilə bağlı qərar qəbul edilmişdir. Bu, bir növ bankların mənfəət vergisindən azad olunmasına bərabərdir.”

Qeyd edək ki, Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB) müvafiq dövlət orqanları ilə əməkdaşlığı çərçivəsində AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Dövlət Miqrasiya Xidmətinin, Dövlət Gömrük Komitəsinin, Dövlət Sosial Müdafiə Fondunun əməkdaşları ilə təşkilatın üzvləri arasında görüşlər təşkil etmişdir və bu kimi maarifləndirmə tədbirlərinin davamı nəzərdə tutulur.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az

**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**